Unudulmazlar

O, xalqının maariflənməsi üçün çox iş görmüşdür

Ömrünü vətəninin çiçəklənməsinə, xalqının tərəqqisinə həsr edənlər hayatını dayişib əbədiyyətə qovuşandan sonra qəlblərdə yaşayır, qədirbilənlər tərəfindən həmişə xatırlanaraq yad edilirlər.

Belə insanlardan biri milli ədəbiyyatımıza zəngin bədii irs bəxş edən böyük Azərbaycan klassiki, görkəmli maarif, mədəniyyət xadimi Abdulla Şaiq Talıbzadənin (1881-1959) keçdiyi ömür yolunun bizə məlum olmayan məqamlarına işıq salmaq üçün onun mənzil-muzeyinin baş mühafizəçisi, mütəfəkkirin nəvəsi, sənətşünaslıq namizədi Ülkər Talıbzadə ilə görüşdük. Ülkər xanım gəlişimizdən sevinib atası, akademik Kamal Talıbzadədən babası haqqında eşitdiyi xatirələrini yada salmaq, ipə-sapa düzmək üçün fikrə getdi. Onun nurlu çöhrəsində babası ilə əlaqədar ağrılı-acılı illərin azabları ilə yanaşı, keçirdiyi qürur hisslərinin cizgiləri də sezilirdi. Fikrini cəmləşdirən Ülkər xanım babası haqqındakı xatirələrini bizimlə bölüşdü.

"Ömrünün 60 ilini xalqının maariflənməsinə həsr edib"

Tiflisdə dünyaya göz açan Abdulla ilk təhsilini ruhani idarəsinin altı sinifli məktəbində (1889-1893) və Xorasanda Türkiyədən gəlmiş maarifsevər Yusif Ziyanın məktəbində (1894-1899) almışdır. Hələ uşaq yaşlarından Şərq ədəbiyyatına, şeirə, sənətə həvəs göstərmişdir.

1900-cü ilin payızında Xorasandan Tiflisə qayıtmış və bir neçə aydan sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Həmin ildə rəsmi dövlət komissiyası qarşısında imtahan verib, müəllimlik hüququ qazanmış, rus-tatar (türk) və realnı məktəblərində ana dili və şərqi dərslərini aparmışdır. Az vaxt içərisində ictimaiədəbi mühitə, Nariman Nərimanov, Əlibəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Əbdürrahimbəy Haqverdiyev və başqaları ilə tanış olur. Sonralar bu tanışlıq dostluğa çevrilir.

On altı yaşında bədii tərcümə və yaradıcılığa başlayan A.Şaiq Bakıda Avropa, türk və rus ədəbiyyatını da öyrənir. Azərbaycanda məktəb və maarif işinin yüksəlişi milli uşaq ədəbiyyatının dramaturgiyasının yaranması birbaşa A.Şaiqin adı ilə bağlıdır. O, Azərbaycan müəlliminləninin I, II qurultaylarının hazırlanmasında komissiya üzvü kimi böyük iş görmüş, "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1909), "Gülzar" (1912) və başqa yeni tipli dərsliklər yaratmışdır.

Bu illərdə buraxdığı "Milli qiraət", "Ədəbiyyat dərsləri", "Türk çələngi" (1919), "Türk ədəbiyyatı" (1920) kimi dərsliklərindən Azərbaycan gənclyinin böyük bir nəsli dərs alıb. A.Şaiqin yazdığı silsilə şeir və poemaları poeziyamıza yeni ab-hava gətirən sənət örnəklərindəndir.

A.Şaiq iki çağınş SSRİ Ali Sovetinə deputat seçilib, əməkdar incəsənət xadimi adına layiq görülüb, bir sıra orden və medallarla təltif edilib.

Əvəzsiz ailə başçısı, gözəl qonşu

Babam ailədə hamı ilə səmimi rəftar edib, xidmətçilərlə belə tez-tez zarafatlaşıb, onların qayğısına qalıb, xüsusi hörmət göstərib, nənəmə ev işlərində kömək etməkdən zövq alıb. Atam Kamala ata münasibətindən daha çox dostluq münasibəti göstərib. Böyük övladı olduğu üçün atamdan ailənin heç bir sirrini gizlətməyib. Ömrünün son 15-20 ilində isə oğlu Kamalı özünün ən yaxın sirdaşı hesab edib. Hər gün işdən sonra atamla qarşı-qarşıya oturub, düşüncələrini, arzularını, planlarını, bəzən yeri düşəndə xatirələrini ona söyləyib, gənclik macəralarından danışıb, suallar verib, mübahisə edib və daim nə isə öyrənməyə çalışıb. Xüsusilə yaşlaşandan sonra saatlarla atamla yanaşı uzanıb söhbət etməkdən zövq alarmış, belə bir ağıllı sirdaşı olduğundan qürur duyarmış.

Babamın davranış qaydalarını, məntiqli danışığını, səbir və təmkinini, özünəməxsus insani keyfiyyətlərini görənlər onun əsəbiləşdiyini, yaxud başqasına xoşagəlməz söz deməsini çətin xatırlasınlar. Tez-tez babamgilə gələn Səməd Vurğun nədənsə nənəmə bu sualı verməyi xoşlardı: "A baldız, sən Allah düzünü de, heç Mirzənin (o, babama hörmət əlaməti olaraq Mirzə deyərdi) sənə acığı tutub? Adam onun hirslənməsinə heç inana bilmir". Nənəm isə cavabında: "Ay Səməd, vallah, yadıma sala bilmirəm", - deyərdi. Hər yerdə onun bu xarakterindən danışardılar.

Babam evdə də belə olub. O, özünü elə apanb ki, onun ən kiçik arzusunu yerinə yetirməmək ailə üzvü üçün mümkün olmayıb. O, həmişə iki oğlu və bir qızını - Kamalı, Gülbənizi və İldırımı başına yığar, onlara nağıl və lətifələr danışar, balalarını elmin, tərəqqinin açan olan sözlə tərbiyə edərdi.

O, qonşulara qarşı da diqqətli olub, onlann hər dərd-sərinə yanyıb, kömək edib. Hər səhər evə aldığı iki pay ətin birini kasıb qonşuya verər, ona tənənnasız əl tutardı. Bir gün babam pulu çatmadığı üçün aldığı bir pay əti evə gətirmir, onlann hər dərd-sərinə yanyıb, kömək edib. Hər səhər evə aldığı iki pay ətin birini kasıb qonşuya verər, ona tənənnasız əl tutardı. Bir gün babam pulu çatmadığı üçün aldığı bir pay əti evə gətirmir, onlann hər dərd-sərinə yanyıb, kömək edib. Hər səhər evə aldığı iki pay ətin birini kasıb qonşuya verər, ona tənənnasız əl tutardı. Bir gün babam pulu çatmadığı üçün aldığı bir pay əti evə gətirmir,

Xeyirxahlıq

Abdulla Şaiqin təbiətindəki mülayimlik, kövrəklik insana olan qayğısından irəli gəlirdi. Darda olan hər kəsə kömək etmək, əl tutmaq, dərdinə şərik çıxmaq onun adəti idi. Kasıblıqla oxuyan tələbələrin cibinə əhmalca pul qoyar, ehtiyacı olan qohum-əqrəbaya maddi köməklik göstərərdi. Kasıb dolanmağımıza baxmayaraq, belə "tədbirlər" üçün onun xüsusi ehtiyatı olardı. SSRİ Ali Sovetinə deputat seçildiyi illərdə bu cəhətdən işi xeyli asanlaşır. Ehtiyacı olan yüzlərlə adama kömək edir. Bağlarda yaşayan, ruhi xəstə, bir gözündən şikəst, ancaq insan kimi çox maraqlı olan Əzizağa kişini bir neçə dəfə xüsusi xəstəxanaya yerləşdirən və nadir dərmanlarla müalicə edilməsinə nail olan babam onu yenidən həyata qaytarmışdır.

Babam küçədə təsadüfən rastlaşdığı Nənəxanım adında qoca bir arvadı evə gətirir, onun dərdini soruşur, şikayətini dinləyir və ona kömək göstərərək uçurum qarşısında qalan bu ailəni fəlakətdən xilas edir. Həmin qan babama hörmət əlaməti olaraq toxuduğu bir cüt corabı ona pay gətirir. Bundan müteəssir olan babam 1923-cü ildə "Anabacı" hekayəsini ürəkağrısı ilə yazır. Babamın tədkidi ilə həmin qoca qadın nənəmlə dostluq edir və həmişə babamgilə gəlibgedir.

Babam tələbəsi olmuş Hümmət Əlizadəni folkloršünaslığa yönəldir, alim kimi yetişməsində ona əlindən gələn köməkliyi edir. Hətta evində ona toy edir, üçotaqlı mənzilinin bir otağının girişini ayıraraq yaşamaq üçün ona verir. İllər ərzində ona maddi yardım göstərir. Məhəmməd Hadinin yaşamağa yeri olmadığı üçün onu da bir ay evində saxlayır. Səməd Vurğunun da toyunu babam evində etmiş, onlara atalıq qayğısı göstərmişdir.

Belə xasiyyətlərinə görə onu çox sevən tələbələri onun 40 yaşını qeyd etmək üçün "Şaiq nümunə məktəbi"ndə adəti üzrə həmin kasıb qonşuya verir, "Biz bu gün birtəhər keçinərik", - deyir.

"O, dostluğa sadiq idi"

Babamın 1906-cı ildə alınmış bir yazı masası vardı. Həmin masanı bir dəfə nənəm Şahzadə xanım dəyişmək, otağın görkəmini tələləmək fikrinə düşür. "A kişi, təzə modda olan yazı masalan gəlib, gələnə bunu dəyişək, təzəsini alaq?", — deyir. Nənəmin— bu nurani və mehriban insanın arzusuna əks getmək babam üçün ağır idi, buna görə də heç bir cavab vermir və susur. Səhər "Masama" adlı mənsur şeirini yazır və həmıya oxuyur, məsələ bununla da hell olunur. Babam 40 illik "dost"undan ayrılmır.

Bu həmin masa idi ki, A.Şaiq əsərlərini, eləcə də son əsərini onun üzərində yazmışdı. O, yenə də əvvəlki görkəmi ilə öz yerində durur. İndi hərdən həmin masanın arxasında babamın adını daşıyan nəvəsi, balaca Şaiq oturur.

Abdulla Şaiq Hüseyn Cavidlə yaxın dost olub. Onların əlləvi gediş-gelişləri var imiş. Bir gün səhər tezdən Abdulla Şaiqin qapısı döyülür. Qapını açan Kamal Hüseyn Cavidin həyat yoldaşı Müşgünaz xanımın gəlişini atasına xəbər verir. O vaxt Hüseyn Cavidin vəziyyətinin ağırlığını bilən A.Şaiq tələsə içində Müşgünaz xanımdan nə baş verdiyini soruşur. Müşgünaz xanım: "Bir saatdan sonra Hüseyni dəmiryol vağzalından qatarla Sibirə aparacaqlar, ona isti paltar və yemək aparmaq lazımdır", — deyir. Babam heç nəyin fərqinə varmadan isti paltar və yemək götürüb evdən çıxır, dostunu yola salmaq üçün vağzala tələsir. Dəmiryol vağzalında iki saata kimi gözləyir, lakin Hüseyn Cavidi görə bilmir və kor-peşman evə qayıdır. Sən demə bu, Hüseyn Cavidin yaxın dostlarını tanıyıb üzə çıxarmaq üçün hazırlanmış bir tələ imiş.

Beləlikə, həyatını təhlükə qarşısında qoyan babam heç nədən qorxmadan dostluğa sadiqliyini sübut edir, şeirində yazdığı "İpəkdən yumşağam, poladdan kəskin" ifadəsini bu hərəkəti ilə təsdiqləyir.

Qardaşının qanlı paltarını Türkiyədən gətirib babama veriblər

Babamın böyük qardaşı Yusif Ziya Talıbzadə inşiqas alim, dramaturq, publisist, ictimai-siyasi xadim olub. İlk təhsilini Tiflisdə alan Yusif sonralar Türkiyəyə gedir və orada təhsilini davam etdirərək hərb elminin sirlərinə yiyələnir. Minbaşı rütbəsi ilə Azərbaycana qayıdır və cümhuriyyətdə faydalı işlərlə xalqına xidmət edir.

1920-21-ci illərdə Naxçıvanda hərbi komissar işləyir. Azərbaycanda ordu quruculuğunda misilsiz xidmətləri olan Yusif Ziya Talıbzadə Sovet hökumətinin qurulması, ölkəmizin rus ordusu tərəfindən işğalı ilə barışa bilmir. Rus ordusuna qarşı azadlıq uğrunda mübarizəni yenidən davam etdirmək üçün Türkiyəyə gedir və orada yüksək çinlə türk ordusunda xidmət edir. 1923-cü ildə rus ordusu ilə müharibədə Amu-dərya çayını keçərkən minbaşı Yusif Ziya Talıbzadə qəhrəmanlıqla həlak olur. Onun qanlı köynəyini və üzərində qan ləkələri olan cib "Quran"ını Azərbaycana gətirib Abdulla Şaiqə verirlər. Onsuz da pantürkizmdə daim günahlandırılan Abdulla Şaiqin vəziyyəti yenə ağırlaşır.

O, həmişə DTK tərəfindən təqib edilib

Abdulla Şaiqi həmişə pantürkizmdə günahlandıraraq onu həbs etmək üçün məqam axtarmışlar, əldə dəqiq məlumat olmadığı üçün bu iş uzanmış, bəzən də qədirbilən dostları onu müdafiə edib aradan çıxarmışlar. Hələ 1937-ci ildə Stalini ifşa edən şeirlər yazsa da, çap etdirməkdən qorxmuş, üzə çıxarmamışdır. Həmin şeirləri 2003-cü ildə oğlu Kamal onun arxivindən tapmışdır.

1930-cu ildə Ruhulla Axundov rəhbər vəzifədə olduğu üçün səlahiyyətindən istifadə edib, təqib olunan A.Şaiqi xilas etmək məqsədilə onu Şuşaya müəllim işləməyə göndərir. Bir neçə il keçəndən sonra babamı yenidən DTK-ya çağırırlar. Onu sual-cavab üçün müstəntiqin kabinetinə aparırlar. Tərəddüdlə kabinetə girən babam gözlərinə inanmır. Müstəntiq onun vaxtilə dərs dediyi tələbəsi imiş. Bir az keçəndən sonra kabinetdən gülərüzlə çıxan babamı tələbəsi-müstəntiq hörmətlə evə yola salır.

Bundan sonra da ara sakitləşmir, təqiblər yenə davam edir. Həmin illərin ağır vaxtında Azərbaycanın nümayəndə heyəti Moskvaya qurutlaya gedirmiş. Mirqasımovla Abdulla Şaiqə xəbər verirlər ki, sizi Mircəfər Bağırov öz vaqonuna çağırır. Onlar xüsusi vaqona girəndə yumşaq kresloda yayxanmış M.Bağırov əli ilə A.Şaiqi göstərib xüsusi istehzayla "Bu idi dəmiryol vağzalında dostu, xalq düşməni olan Hüseyn Cavidi saatlarla gözləyən?", —deyə soruşur. Vəziyyətin ciddi olduğunu görən Mirqasımov A.Şaiqi düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu axtarır. Və "Yoldaş Bağırov, Abdulla belə də etməli idi. Çünki o, şairdir. Şairlərin təbirincə dar gündə dosta arxa çevirmək Vətənə, xalqa, millətə, hökumətə arxa çevirmək kimi bir şeydir", — deyir. Mirqasımovun düşünülmüş bu cavabından xoşhallanan M.Bağırov gülümsəyir. Bununla da təhlükə sovuşur.

Təhlükələrdən qorxmayan, əzabəziyyətlərdən usanmayan, həyatın, ömür-gününü Vətəninin çiçəklənməsinə, millətinin maariflənməsinə həsr edən xalqımızın böyük oğlu Abdulla Şaiq bu gün də qəlblərdə yaşayır və yaşayacaqdır.

Nizami MİRZƏ